# MƏDƏNİ-MƏNƏVİ İRSİMİZİN MƏHVİ və ERMƏNİ TERRORU

*Siz ermənilәri 8 yaşında saf və məsum qız kimi təsəvvür edirsiniz. Siz tamamilə səhv mövqedəsiniz. Ermənilər öz qəddar davranışları ilə nə qədər qaniçən xalq olduqlarını göstərdilər.*

Lord Kerzon,
13 mart 1920

Pərvanə Əliyeva,
AMEA Memarlıq və İncəsənət İnstitutunun dissertantı,
Gənc Alim və Mütəxəssislər Şurasının sədri
E-mail: ***aliyeva1984@yahoo.com***

Ermənilərin türk dünyasına qarşı təcavüzünün faciəli nəticələri təkcə tarixi ərazilərimizin zəbt edilməsi, insanların öz yurd-yuvasında qaçqına və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmır, daşnaklar tarixi-mədəni, dini abidələrə, musiqi irsinə və etnik-mədəni dəyərlərə də ağır zərbələr vurmuşlar. Məlumdur ki, Azərbaycanın mədəniyyəti və memarlığı da xalqın minillik tarixinin ayrılmaz hissəsi kimi islam irsi mənbələrindən biridir. İşğala məruz qalmış ərazilərdə erməni təcavüzkarları tərəfindən islam irsinə vurulmuş ağır zərərlər, islam mədəniyyətinə aid dini-tarixi abidələrin, xüsusən məscidlərin, alban məbədlərinin, qədim məzarlıqların, arxeoloji qazıntıların, muzeylərin, kitabxanaların, rəsm qalereyalarının, dövlət teatrlarının, musiqi məktəblərinin tam və ya qismən dağıdılması, zəbt edilmiş muzeylərdən çoxsaylı qiymətli əşyaların, milyonlarla kitab və tarixi əlyazmaların çıxarılması və məhvi faktları daim diqqətdə saxlanılmalı və beynəlxalq ictimaiyyətə təqdim olunmalıdır. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) toplantılarında da Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş torpaqlarımızda islam tarixi və mədəniyyət abidələrinin məhvi və dağıdılması haqqında bir sıra qətnamələr qəbul edilib. Həmin sənədlərdə Azərbaycan Respublikasının erməni vandalları tərəfindən işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhv edilməsinə yönəldilmiş vəhşi hərəkətləri kəskin şəkildə pislənilir *(1)*.

Mədəni mülkiyyətin həm dinc dövrdə, həm də müharibə zamanı mühafizəsi məsələlərində 1945-ci ildə nizamnaməsi qəbul edilmiş BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatının (YUNESKO) rolu böyükdür. Təşkilatın nizamnaməsinin 1-ci maddəsinin 2-ci bəndində onun vəzifələrindən biri kimi bəşəriyyətin ümumdünya irsinin – kitabların, incəsənət əsərlərinin və tarixi-elmi əhəmiyyətli abidələrin qorunub saxlanılmasının və mühafizəsinin qayğısına qalınması göstərilmişdir. YUNESKO-nun himayəsi altında qəbul edilmiş 14 may 1954-cü il tarixli Haaqa konvensiyasının 28-ci maddəsinə əsasən, iştirakçı dövlətlər öz cinayət qanunvericilikləri çərçivəsində vətəndaşlığından asılı olmayaraq bu konvensiyanı pozmuş və ya pozmağı əmr etmiş şəxslərin üzə çıxarılıb barəsində cinayət və ya inzibati sanksiyalar tətbiqi üçün lazımi tədbirlərin görülməsini öz üzərinə götürür. YUNESKO-nun dəstəyi ilə hazırlanmış "Mədəni mülkiyyətin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz şəkildə başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında" 14 noyabr 1970-ci il konvensiyasının 2-ci maddəsi mədəni mülkiyyətin bununla bağlı bütün təhlükələrdən mühafizəsini təmin edən ən təsirli hüquqi sənəd statusunu bir daha təsdiqləyir. Azərbaycan xalqının mədəni irsinin yüz illər boyunca ermənilər tərəfindən mənimsənilməsi ermənilik mifologiyası ilə sıx bağlıdır. Gəlmə etnos ermənilər onlara məxsus olmayan torpaqlara aid ərazi iddialarının "əsaslandırılmasını" həmin torpaqların həqiqi sakinlərinə məxsus maddi və qeyri-maddi irsin qavranılması, mənimsənilməsi və erməniləşdirilməsi ilə əlaqələndirir, özlərini xristian mədəniyyətinin yeganə varisi kimi aparırlar. İşğala məruz qoyulan ərazilərdə dünyanın gözü qarşısında Azərbaycanın arxeoloji irsi yağmalanmaqda, sözün əsl mənasında arxeoloji terror baş alıb getməkdədir. Ölkəmiz 1999-cu ildə "Arxeoloji irsin qorunması haqqında" Avropa Kollektiv Konvensiyasına qoşulmuşdur. Məqsəd arxeoloji irsin Avropa kollektiv yaddaşının mənbə, tarix və elmi araşdırmalar aləti kimi qorunmasının təminindən ibarətdir. Konvensiyaya qoşulan hər bir tərəf arxeoloji irsin kompleks qorunması, elmi informasiyanın toplanması və yayılması, arxeoloji tədqiqatların və saxlamanın maliyyələşdirilməsi, arxeoloji irs elementlərinin qanunsuz dövriyyəsinin qarşısının alınması və bu kimi öhdəlikləri öz üzərinə götürür *(2)*.

1988-ci ildən sonra Azərbaycan mədəniyyətinə qarşı erməni vəhşiliyi daha da gücləndi. BMT Baş Məclisinin elan etdiyi, BMT və YUNESKO-nun himayəsi ilə keçirilən "Mülkiyyətin inkişafının ümumdünya onilliyi" (1988–1997) Azərbaycan tarixinə mədəni irsin qorunması onilliyi deyil, Azərbaycan mədəniyyətinə daha açıq və dağıdıcı erməni terroru mərhələsi kimi daxil oldu. Təcavüzün genişləndiyi 1993-cü ilin aprelindən etibarən Azərbaycanın ayrılmaz ərazisi Dağlıq Qarabağda, Ermənistan sərhədindəki bölgələrdə tarixi və mədəni abidələr ermənilər tərəfindən müasir silahlarla yerləyeksan edildi, şəhər və kəndlər dağıdıldı.

Erməni tarixçilərinin ən böyük təxribatlarından biri də Qafqaz Albaniyası, alban xristian abidələri ilə bağlıdır. Alban memarlıq abidələrinin, hətta xristianlığaqədərki dövrə aid daş və divar rəsmlərində və eləcə də süjet xarakterli oymalarda daha çox türkdilli xalqlara məxsus elementlərdən istifadə hazırkı dövrdə erməni vandalları tərəfindən daha çox zərər vurulması ilə nəticələnir. Azğın ermənilər məskunlaşdıqları ərazilərdə tarix və mədəniyyət abidələri üzərində türk ornamentlərini və simvollarını birmənalı şəkildə qəbul etmirlər. Çünki alban dövrü abidələri üzərindəki ornament və simvolların olduğu kimi qəbulu onların erməniləşdirilməsini mümkün-

süz edir. Azərbaycanın işğal altındakı ərazilərində xeyli sayda alban dövrünə aid dairəvi məbədlər – memarlıq abidələri vardır. Bunlar xristianlığaqədərki abidələr sayılır. Yəni xristian dinindən öncə inşa edildiyindən üzərlərində heç bir dini simvollar, inancları andıran atributlar yer almamışdır. Özlərinin nə memarlıq quruluşlarında, nə də tikinti üslublarında dini inancları əks etdirmir. Belə ki, dairəvi məbədlər erkən xristianlıq dövrünə aiddir və tədqiqatçıların fikrincə, Günəşə ibadət edən albanlar tərəfindən, yəni hələ xristianlığın tam mənimsənilmədiyi və səma cisimlərinə ibadətlə qarışdığı dövrlərdə tikilib. Həmin dövr memarlıq üslubunun bütün ornamentlərində atəşpərəstliyin təzahürləri, göy cisimlərinə ibadətin motivləri öz əksini tapır.

Adıçəkilən sahədə Azərbaycan tarixçiləri dəyərli araşdırmalar apararaq ermənilərə tutarlı cavablar vermişlər. Bu yöndə dövlət səviyyəsində də kompleks işlər görülməkdədir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində Qafqaz Albaniyasının mədəni irsinə dair vahid məlumat bazasının və saytın hazırlanması, bu istiqamətdə milli və beynəlxalq layihələrin dəstəklənməsi, ölkə ərazisində bütün bölgələrdə Qafqaz Albaniyası dövrünə aid abidələrin identifikasiyası, tədqiqi, bərpası və qorunması, abidələrin ölkədə və xaricdə tanıdılması məqsədilə təbliğat materiallarının hazırlanması, Qafqaz Albaniyası abidələrinin YUNESKO-nun "Dünya irsi siyahısı"na təqdim edilməsi üçün sistemli şəkildə tədbirlər təşkil edilir, kitablar yazılır, sənədli filmlər çəkilir. Bu məqsədlə AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda "Qafqaz Albaniyasının incəsənəti və memarlığı" şöbəsi yaradılıb. Azərbaycan xalqının mədəni irs nümunələrinin erməniləşdirilməsi ilə bağlı Ümumdünya Əqli Mülkiyyət Təşkilatına müraciət ünvanlanıb. Yeri gəlmişkən, aşıq sənətinin, muğam sənətinin YUNESKO-nun "Qeyri-maddi abidələr siyahısı"na salınması, 2010-cu ildə Bakının "İslam mədəniyyəti paytaxtı" olması təqdirəlayiq mədəni hadisələrdən biridir. Təəssüf ki, erməni plagiatlığı ilə bağlı müvafiq qurumların təşkilata çoxsaylı müraciətlərinə baxmayaraq, düşmən mövcud cəzasızlıq şəraitindən istifadə edərək Azərbaycanın musiqi mədəniyyətinə, mətbəx mədəniyyətinə, rəqs və xalçaçılıq sənətinə qarşı mənəvi terroru davam etdirir. Azərbaycanın şəhərsalma və memarlıq ənənəsi nümunələrinin erməni vəhşətindən qurtulması üçün genişmiqyaslı kampaniyalar aparılır, beynəlxalq təşkilatlar, xüsusən YUNESKO səviyyəsində ciddi surətdə məsələlər qaldırılır. Tarixi-mədəni mərkəzlərimizdən ən qədimi Şuşanın taleyi bu sıradandır. Şuşa 24 ildir ki, erməni vandalizminin tüğyanı nəticəsində tamamilə dağıdılıb. Bu məkan türk şəhərsalma və memarlıq mədəniyyətini özündə daşıması baxımından Azərbaycanın mühafizə altına alınmış 4 tarixi şəhərindən biridir. Dəyərli obyektlər sırasında saxlanması nöqteyi-nəzərdən beynəlxalq ənənəvi şəhərlər siyahısına salınması üçün YUNESKO-ya təqdim olunub. VIII yüzilə qədər Qafqazda xristianlıq hakim idi. Müasir Azərbaycan tarixən xristian mədəniyyətini yaşayan və yaşadan müsəlman ölkəsidir və hər iki səmavi dinin zəngin mirasına sahibdir. Əhalinin gerçək tolerantlığının və multikulturalizmə rəğbətinin kökü də məhz burada axtarılmalıdır. Azərbaycan həm milli mədəniyyətin, həm əlaqəli regional mədəniyyətlərin, həm də ümumtürk mədəniyyəti və digər dünya mədəniyyətlərinin qovuşduğu qlobal əhəmiyyətli geosivilizasiya məkanıdır. Qeyd olunanlar nəzərə alınaraq dünya mədəniyyətlərarası dialoq mərkəzi kimi Azərbaycan hökuməti tərəfindən, Ermənistanın işğal etdiyi ərazilərdə Azərbaycanın mədəni-dini irsinə dəymiş ziyan barədə dünya ictimaiyyətinin geniş məlumatlandırılması istiqamətində ciddi addımlar atılır. Beləliklə, Azərbaycan dövlətinin mədəni-mənəvi irsimizin müdafiəsi ilə bağlı apardığı siyasət, əslində, mənəvi varlığımızın müdafiəsidir. Mədəni irsimizin yad müdaxilələrdən və təxribatlardan qorunması etnik-mədəni tariximiz üçün böyük dəyər kəsb edir.

*Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir.*

*Qrant № EİF/GAM-3-2014-6(21)-24/21/5* ❖

**Ədəbiyyat**

1. Baxşəliyeva G.B. Heydər Əliyev və İslam Əməkdaşlıq Təşkilatı // Heydər Əliyevin 90 illiyinə həsr olunmuş "Humanitar elmlərin aktual problemləri" konfransının materialları. Bakı: Mütərcim, 2013.
2. Qiyasi C., Bozyel İ. Erməni mənəvi terroru. Adlar dəyişsə də, tarix qalır. Bakı: Kitab klubu, 2007.
3. İsmailov F. İşğal altındakı Azərbaycan ərazilərində xristian və islam dini abidələrinin qəddarlıqla məhv edilməsi."Qafqazda mədəni-dini irsin qorunması" beynəlxalq elmi konfransın tezislər toplusu B., 2015, s. 18–25.

**Резюме**

В данной статье речь идет о защите историческо-культурного наследия азербайджанского народа от армянских вандалов. Защита культурного наследия на уровне международных организаций является одним из приоритетных направлений культурной политики азербайджанского государства.

**Ключевые слова:** геноцид, этническая чистка, моральный террор, памятники культуры, акт вандализма, археологическое наследие.

**Summary**

This article deals with the protection of historical and cultural heritage of the Azerbaijani people by Armenian vandals. Protection of Cultural Heritage at the level of international organizations is one of the priorities of the cultural policy of the Azerbaijani state .

**Key words**: genocide , ethnic cleansing , moral terror , cultural monuments , an act of vandalism , the archaeological legacy.